# "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Media haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 247-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Media haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 247-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 59.7-1-ci maddəsində hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 59.7-1-ci maddəsində birinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 59.7-1-ci maddəsində ikinci halda "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.4. "Media haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-1-ci (hər iki halda), 11.2-2-ci, 11.2-3-cü, 11.2-4-cü (hər iki halda), 75.1.6-cı, 75.1.6-1-ci, 75.1.6-5-ci, 75.1.6-6-cı, 75.1.7-ci (ikinci halda) maddələrində, 75.2-1-ci maddəsinin birinci (hər iki halda) və ikinci (hər iki halda) cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.5. həmin Qanunun 11.2-1-ci (birinci halda), 11.2-3-cü maddələrində və 75.2-1-ci maddəsinin birinci (ikinci halda) cümləsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 11.2-1-ci (ikinci halda), 11.2-2-ci, 11.2-4-cü (birinci halda), 75.1.6-cı, 75.1.6-1-ci, 75.1.6-5-ci, 75.1.6-6-cı, 75.1.7-ci (ikinci halda) maddələrində, 75.2-1-ci maddəsinin birinci (birinci halda) və ikinci (birinci halda) cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi nəzərdə tutulur;

1.7. həmin Qanunun 11.2-4-cü (ikinci halda) maddəsində və 75.2-1-ci maddəsinin ikinci (ikinci halda) cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Media haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 247-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə"Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609 (Cild I); 2024, № 7, maddə 790; 2025, № 6, maddə 542) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-ci bənddə "və 139.4-cü maddələrinin üçüncü cümlələrində" sözləri "maddəsinin üçüncü cümləsində, 59.7-1-ci (hər iki halda) maddəsində, 139.4-cü maddəsinin üçüncü cümləsində" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 3.3-1-ci və 3.3-2-ci bəndlər əlavə edilsin:

"3.3-1. həmin Məcəllənin 59.7-1-ci maddəsində birinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi nəzərdə tutulur;

3.3-2. həmin Məcəllənin 59.7-1-ci maddəsində ikinci halda "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;".

4. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə "Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561) aşağıdakı məzmunda 5.36-2-ci bənd əlavə edilsin:

"5.36-2. həmin Məcəllənin 381.15-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi baxır;".

5. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (I kitab), maddələr 1294, 1295, (II kitab), maddə 1378; 2025, № 2, maddə 127, № 4 (I kitab), maddə 325, № 5, maddə 463) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın13-1.1-ci bəndində "maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə (audiovizual media subyektləri istisna olmaqla, digər media subyektlərinə münasibətdə)" sözləri "(audiovizual media subyektləri istisna olmaqla, digər media subyektlərinə münasibətdə), habelə 381.15-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə" sözləri ilə əvəz edilsin.

6. "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il8 fevral tarixli 1589 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 100 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-ci bəndə "10.2-ci," sözlərindən sonra "11.2-1-ci (hər iki halda), 11.2-2-ci, 11.2-3-cü, 11.2-4-cü (hər iki halda)," sözləri, "74.3-cü," sözlərindən sonra "75.1.6-cı, 75.1.6-1-ci, 75.1.6-5-ci, 75.1.6-6-cı," sözləri, "75.1.7-ci" sözlərindən sonra "(hər iki halda)" sözləri, "75.2-ci" sözlərindən sonra "maddələrində, 75.2-1-ci maddəsinin birinci (hər iki halda) və ikinci (hər iki halda) cümlələrində" sözləri əlavə edilsin və həmin bənddən "65.2.3-cü," sözləri çıxarılsın;

6.2. 2.5-ci bəndə "10.2-ci," sözlərindən sonra "11.2-1-ci (ikinci halda), 11.2-2-ci, 11.2-4-cü (birinci halda)," sözləri, "74.3-cü," sözlərindən sonra "75.1.6-cı, 75.1.6-1-ci, 75.1.6-5-ci, 75.1.6-6-cı," sözləri, "75.1.7-ci" sözlərindən sonra "(hər iki halda)" sözləri, "75.2-ci" sözlərindən sonra "maddələrində, 75.2-1-ci maddəsinin birinci (birinci halda) və ikinci (birinci halda) cümlələrində" sözləri əlavə edilsin və həmin bənddən "65.2.3-cü," sözləri çıxarılsın;

6.3. 2.5-1-ci bənd 2.5-2-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 2.5-1-ci bənd əlavə edilsin:

"2.5-1. həmin Qanunun 11.2-4-cü (ikinci halda) maddəsində və 75.2-1-ci maddəsinin ikinci (ikinci halda) cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;";

6.4. 2.10-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.11-ci bənd əlavə edilsin:

"2.11. həmin Qanunun 11.2-1-ci (birinci halda), 11.2-3-cü maddələrində və 75.2-1-ci maddəsinin birinci (ikinci halda) cümləsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 avqust 2025-ci il*

Azərbaycan. - 2025.- 2 avqust (№ 159).- S.2.